# GÖMRÜK PROSEDURLARININ EFFEKTİV VƏ MƏQSƏDYÖNLÜ HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN METOD VƏ PRİNSİPLƏR



**Nigar Zeynallı,**
*Azərbaycan Turizm və Menecment Universitetinin magistrantı*
*e-mail: zeynallinika@gmail.com*
*https://orcid.org/0009-0003-0675-6044*
*https://doi.org/10.30546/2706-7858.2025.3.1012*

**UOT:** 339.5

**Xülasə.** *Müasir ticarət mühitində gömrük prosedurlarının düzgün təşkili və icrası milli iqtisadiyyatların davamlı inkişafı və beynəlxalq ticarət əməliyyatlarının təhlükəsizliyini təmin edən əsas amillərdən biridir. Bu prosesin effektiv və məqsədyönlü şəkildə həyata keçirilməsi üçün xüsusi metod və prinsiplərin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Gömrük nəzarətinin əsas məqsədi sərhəd keçid məntəqələrində qanun pozuntularının qarşısını almaq, qanuni ticarəti dəstəkləmək və milli təhlükəsizliyi təmin etməkdir. Bu yanaşmaların nəzəri və praktiki tətbiqi beynəlxalq ticarət əməliyyatlarını daha təhlükəsiz və şəffaf edir, eyni zamanda gömrük nəzarətinin səmərəliliyini artırır. Gömrük orqanlarının fəaliyyətində metod və prinsiplərin düzgün tətbiqi həm milli iqtisadiyyat, həm də qlobal ticarət baxımından mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlərə nail olmaq üçün riskəsaslı yanaşma, texnoloji həllərdən istifadə, beynəlxalq əməkdaşlıq və şəffaflıq kimi müasir prinsiplər ön plana çıxır. Həmçinin gömrük prosedurlarının tənzimlənməsi zamanı insan hüquqlarına hörmət və hüquqi əsasların qorunması proseslərin etik dəyərlərə uyğun təşkil edilməsini təmin edir.*

*Gömrük orqanlarının fəaliyyətində tətbiq olunan metod və prinsiplər idxal-ixrac əməliyyatlarını sürətləndirməklə yanaşı, qanunsuz fəaliyyətlərə qarşı mübarizədə effektiv vasitə kimi çıxış edir. Bu yanaşmalar, eyni zamanda milli və qlobal iqtisadiyyatın dayanıqlı inkişafına dəstək verir və beynəlxalq ticarət əlaqələrində təhlükəsizliyin və şəffaflığın təmin edilməsinə töhfə verir.*

***Açar sözlər:*** *gömrük nəzarəti, risk idarəetməsi, etik və hüquqi əsaslar, idxal-ixrac əməliyyatları.*
***Key words:*** *customs control, risk management, ethical and legal foundations, import-export operations.*
***Ключевые слова:*** *таможенный контроль, управление рисками, этико-правовые основы, импортно-экспортные операции.*

Qloballaşmanın sürətləndiyi müasir dövrdə beynəlxalq ticarət əməliyyatlarının artması və mürəkkəbləşməsi gömrük prosedurlarının daha effektiv və məqsədyönlü şəkildə həyata keçirilməsini zəruri edir. Gömrük sistemləri yalnız ölkələr arasında sərhəd nəzarətini təşkil edən mexanizm deyil, eyni zamanda milli iqtisadiyyatların inkişafını dəstəkləyən, qanun pozuntularına qarşı mübarizə aparan və ticarət əlaqələrinin təhlükəsizliyini təmin edən mühüm mexanizmlərdir.

Beynəlxalq ticarətdə artan dinamiklik, rəqəmsallaşma və texnologiyaların tətbiqi, eyni zamanda yeni ticarət müqavilələri və beynəlxalq təşkilatların tələbləri gömrük prosedurlarında müasir metod və prinsiplərin əhəmiyyətini artırır. Risk idarəetməsi, sürətli və şəffaf xidmətlərin göstərilməsi, həmçinin hüquqi tələblərə uyğunluğun təmin edilməsi gömrük orqanlarının əsas prioritetləri arasındadır.

Bu sahədə effektiv metodların tətbiqi qanunsuz mal dövriyyəsinin qarşısının alınmasına, sərhədlərin təhlükəsizliyinin təmin edilməsinə və ticarət əməliyyatlarının qanunauyğun həyata keçirilməsinə zəmin yaradır. Gömrük prosedurlarının müasir metodlarla təşkili və prinsipial şəkildə həyata keçirilməsi qlobal iqtisadi inteqrasiyanın və dayanıqlı inkişafın təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu baxımdan tədqiqat mövzusu həm nəzəri, həm də praktik müstəvidə yüksək aktuallığa malikdir.

**Problemin elmi ədəbiyyatda təhlili**

Gömrük nəzarətinin təşkili və tənzimlənməsi müasir iqtisadiyyatın tələblərinə uyğun şəkildə həyata keçirilməlidir. Bu, ticarət mühitinin təhlükəsizliyini təmin edir, eyni zamanda dövlətin vergi gəlirlərini artırır və iqtisadi inkişafı dəstəkləyir. Metodların və prinsiplərin birgə tətbiqi gömrük sisteminin effektivliyini artırır və ticarətin asanlaşdırılmasına kömək edir [9].

Gömrük nəzarətinin təşkili və tənzimlənməsi metodları və prinsipləri sahəsində alimlərin fərqli yanaşmaları müxtəlif aspektlərdən irəli gəlir. Bu yanaşmalar aşağıdakılardır.

***1. Risk analizi***

David H.Rosenbaum [6] və Emili Djones [7] gömrük nəzarəti və risk analizi ilə bağlı fərqli yanaşmalar təqdim edirlər. David H.Rosenbaum "Gömrük riskinin idarə edilməsi: Qlobal perspektiv" (Customs risk management: A global perspective, 2014) adlı kitabında risk analizi metodunun gömrük əməliyyatlarında necə tətbiq olunduğunu ətraflı şəkildə izah edir. O, risk analizinin gömrük nəzarətinin əsas prinsipi olduğunu vurğulayır və bunun gömrük əməliyyatlarının optimallaşdırılmasında və səmərəli idarə olunmasında vacib rol oynadığını qeyd edir. Rosenbaum risklərin sistematik şəkildə qiymətləndirilməsinin gömrük resurslarının daha səmərəli istifadəsinə imkan yaratdığını, bunun isə nəticədə həm təhlükəsizliyi təmin etməyə, həm də ticarət əməliyyatlarını asanlaşdırmağa kömək etdiyini bildirir.

Emily Djones isə "Gömrük və risklərin idarə edilməsi: Kompleks yanaşma" (Customs and risk management: A comprehensive approach, 2019) adlı əsərində risk analizinin vacibliyini qəbul etsə də, bu yanaşmanın bəzi hallarda yanlış nəticələrə yol aça biləcəyini qeyd edir. Djones risklərin daha geniş və dinamik bir çərçivədə qiymətləndirilməsini təklif edir, çünki yalnız müəyyən bir istiqamətdə edilən risk qiymətləndirməsi bəzən ticarət əməliyyatlarında gözlənilməz nəticələrə gətirib çıxara bilər. O, risklərin müvafiq kontekstdə və zamanla dəyişən amillər nəzərə alınaraq qiymətləndirilməsinin vacib olduğunu vurğulayır.

Bu iki müəllifin yanaşmaları risk analizinin gömrük nəzarətinin səmərəli və təhlükəsiz idarə olunmasında necə əhəmiyyətli bir alət olduğunu göstərsə də, Djonesin fikirlərinə görə, bu yanaşmanın düzgün tətbiqi üçün daha geniş və çevik bir risk qiymətləndirmə çərçivəsinin lazım olduğu aydın olur.

***2. Müasir texnologiyaların tətbiqi***

Martin Van der Veen texnologiyanın müsbət təsirlərini qəbul etsə də, insan amilinin əhəmiyyətini unutmamağın vacib olduğunu düşünür. O, texnologiyaların insan müdaxiləsini tam əvəz etməməli olduğunu qeyd edir. Həmçinin müasir texnologiyalar kiber hücumlara açıq olduğu üçün məlumatların qorunması və sistemlərin təhlükəsizliyi ciddi narahatlıqlara səbəb ola bilər [8]. Martin Van der Veen bu yanaşmanın texnologiyanın inkişafının və tətbiqinin insan dəyərləri, sosial aspektlər və etik məsələlərlə uyğunlaşmasını təmin etməli olduğunu müdafiə edir. Texnologiya yalnız avtomatlaşdırma və səmərəlilik yaratmaqla kifayətlənməməli, həmçinin insanlar arasında əlaqəni, sosial ədaləti və etibarı qorumağa kömək etməlidir. Onun fikrincə, texnologiyanın tətbiqi və inkişafı hər zaman insanlar tərəfindən idarə olunmalı, qərarların verilməsində insan təcrübəsi və etik prinsiplər nəzərə alınmalıdır. Bu yanaşma texnologiyanın istifadəsinin insan hüquqlarını, mədəniyyətini və sosial strukturunu mənfi şəkildə təsir etməməsi üçün vacibdir. İnsan amilinin əhəmiyyəti texnologiyanın yalnız bir vasitə olmadığını, həm də insanların faydaları və məqsədləri üçün necə yönəldilməsi lazım olduğunu göstərir. Bu mövzuya dair ədəbiyyatda əsas fikir mübadiləsi texnologiyanın müsbət təsirləri-

nin qorunması ilə yanaşı, insanların müdaxiləsinin və düzgün idarəetmənin önəmindən bəhs edir. Van der Veen, həmçinin insanın sosial və etik dəyərlərinin texnologiyanın inkişafı ilə paralel şəkildə nəzərə alınmasının da vacib olduğunu vurğulayır. Fikrimizcə, texnologiyalar (skanerlər, avtomatlaşdırılmış sistemlər) gömrük nəzarətini sürətləndirir və dəqiqliyi artırır, həmçinin bu yanaşma gömrük əməliyyatlarını daha şəffaf və səmərəli etməyə kömək edir və nəzarət müddətinin azaldılmasında böyük rol oynayır.

***3. Beynəlxalq əməkdaşlıq***

Pitr Smit beynəlxalq əməkdaşlığın gömrük nəzarətinin effektivliyini artırdığına inanır. O, müxtəlif ölkələr arasında məlumat mübadiləsinin vacibliyini vurğulayaraq qeyd edir ki, fərqli ölkələr arasında gömrük əməkdaşlığı və məlumat mübadiləsi qlobal ticarət mühitinin inkişafına kömək edir. Bu, ticarətin asanlaşdırılması və təhlükəsizliyin artırılması üçün də vacibdir [5].

Deməli, hər bir yanaşma öz müsbət və mənfi cəhətləri ilə bərabər, gömrük sisteminin effektivliyini artırmaq üçün mühüm rola malikdir. Bu metodların bir araya gətirilməsi müasir tələblərə cavab verən bir gömrük nəzarət sistemi qurmaq üçün əhəmiyyətlidir. Hər bir yanaşmanın özünəməxsus məsuliyyəti və tətbiq üsulları var.

**Gömrük nəzarətinin təşkili və tənzimlənməsi metodları**

Gömrük nəzarətinin təşkili və tənzimlənməsi ticarət mühitinin təhlükəsizliyini təmin etmək, dövlətin vergi gəlirlərini artırmaq və qanunsuz ticarət fəaliyyətlərinin qarşısını almaq məqsədini güdür. Metodlar və prinsiplər gömrük nəzarətinin effektivliyini artırmaq və ticarət əməliyyatlarını asanlaşdırmaq üçün əsas rol oynayır. Hər bir prinsip və metodun tətbiqi gömrük idarəçiliyinin səmərəli və təhlükəsiz olmasını təmin edir. Bu proseslər bir neçə əsas metod və prinsiplər əsasında həyata keçirilir. Gömrük nəzarətinin həyata keçirilməsi və idarə olunması metodlarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- ***Xarici iqtisadi fəaliyyət iştirakçılarından izahat tələb etmək və almaq metodu.*** Müfəttiş sənədlərdə göstərilən məlumatları aydınlaşdırmaq üçün fiziki və hüquqi şəxslərdən əlavə məlumat tələb edir.
- ***Seçmə nəzarət metodu.*** Bütün mal partiyasına deyil, yalnız bir hissəsinə baxılır. Hansı mal partiyasını nəzarət tədbirlərinə məruz qoymaq risklərin idarə edilməsi sistemi (risk idarəetmə sistemi) tərəfindən müəyyən edilir. Hər bir mal partiyasına gömrük nəzarəti formasının seçilməsindən asılı olan bir risk profili təyin edir.
- ***Sənədlərin və məlumatların yoxlanılması metodu.*** Müfəttiş bəyan edərkən bütün rəsmiyyətlərin müşahidə olunduğunu, bütün möhürlərin, ştampların olduğunu və nümunələrlə müqayisə olunduğunu müəyyənləşdirməlidir.
- ***Texniki vasitələrdən istifadə metodu.*** Gömrük nəzarəti zamanı səmərəliliyin artırılması və həyata keçirilmə müddətinin azaldılması, eləcə də həyata keçirərkən vaxt və əmək xərclərini azaltmaq üçün texniki vasitələrdən – alətlər, cihazlar, qurğulardan istifadə olunur. Çox vaxt xüsusi güzgülər, video işıqlar, zondlar, rentgen və baxış fənəri qurğularından istifadə olunur.
- ***Malların və nəqliyyatın gömrük müayinəsi metodu.*** Gömrük nəzarətinin aparıldığı mallar haqqında və ya məlumat əldə etmək lazım olduqda həyata keçirilir. Nəqliyyat vasitələri, fiziki şəxslərin əl yükünün, müşayiət olunan və müşayiət olunmayan baqajlarının, malların və nəqliyyat vasitələrinin, yük konteynerləri, gömrük möhürləri, möhürlər və digər tanınma vasitələri daxil olmaqla malların vizual müayinəsi nəqliyyat vasitələrinin yük sahələrini (bölmələrini) açmadan və mallar qablaşdırılmadan aparılır.
- ***İzahat almaq metodu.*** Müfəttiş sənədlərdə göstərilən məlumatları aydınlaşdırmaq üçün fiziki və hüquqi şəxslərdən əlavə məlumat tələb edir.
- ***Yoxlama metodu.*** Gömrük nəzarəti məqsədləri üçün binaların və ərazilərin yoxlanılması həyata keçirilir.
- ***Audio və videomməlumat daşıyıcıları üzrə nəzarət metodu.*** Gömrük işi sahəsində qanun pozuntularının aşkar edilməsi zamanı qadağan olunmuş məlumatların silinməsini, eyni zamanda fotokinoplyonkalara, slaydlara, USB və digər yaddaş qurğularına baxılmasını təmin edir [3].

Burada qeyd olunan metodlar gömrük idarəçiliyinin həm nəzəri, həm də praktiki aspektlərini əhatə edir. Xüsusilə, seçmə nəzarət, texniki vasitələrin tətbiqi və risk idarəetmə sisteminin istifadə olunması kimi müasir metodların vurğulanması bu sahədə inkişaf edən texnologiyalar və yeniliklərə uyğunlaşmanın əhəmiyyətini göstərir.

**Gömrük nəzarətinin təşkili və tənzimlənməsi prinsipləri**

Gömrük nəzarətinin təşkili və tənzimlənməsi

prinsipləri ticarət əməliyyatlarının təhlükəsizliyini təmin etmək, qanunsuz ticarətin qarşısını almaq, dövlətin vergi gəlirlərini artırmaq və beynəlxalq iqtisadi əlaqələri səmərəli şəkildə idarə etmək məqsədi daşıyır. Bu prinsiplər gömrük orqanlarının fəaliyyətini tənzimləyən hüquqi və əməliyyat qaydaları ilə yanaşı, ölkələrin beynəlxalq ticarətdəki rolu və rəqabət qabiliyyətinin artırılması üçün vacibdir.

Gömrük nəzarətinin effektiv həyata keçirilməsi üçün müəyyən prinsiplər və metodlar mövcuddur ki, bunlar gömrük əməliyyatlarının sürətli, şəffaf və hüquqi tələblərə uyğun olmasını təmin edir. Bu prinsiplər, həm də gömrük sisteminin qlobal ticarət sistemində daha inteqrasiya olunmasını və ticarət maneələrinin azaldılmasını hədəfləyir. Gömrük nəzarətinin prinsipləri ölkələr arasında sərhəd ticarətinin təşkili, müvafiq ticarət qaydalarına əməl olunması və təhlükəsizlik məsələlərinin yerinə yetirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

• ***Gömrük orqanlarının hərəkətlərinin eksklüzivliyi prinsipi.*** Yalnız səlahiyyətli idarələr yoxlama işləri aparmaq hüququna malikdirlər.

• ***Seçmə prinsipi.*** Gömrük orqanları yalnız gömrük qanunvericiliyinə əməl olunmasını təmin etmək üçün kifayət edən nəzarət formaları ilə məhdudlaşır.

• ***Beynəlxalq əməkdaşlıq prinsipi.*** Müxtəlif ölkələrin gömrük orqanlarının qarşılıqlı təsirinin keyfiyyəti əsasən nəzarətin effektivliyini müəyyənləşdirir.

• ***Şəffaflıq və proqnozlaşdırma prinsipi.*** Gömrük prosedurları və qaydaları şəffaf və proqnozlaşdırıla bilən olmalıdır. Əmtəə müəllimləri və gömrük orqanları mallara hansı qaydaların tətbiq olunduğunu, sənəd və prosedurlara hansı tələblərin qoyulduğunu bilməlidirlər.

• ***Gömrük orqanlarının hərəkətlərinin eksklüzivliyi prinsipi.*** Nəzarət tədbirləri yalnız gömrük orqanları tərəfindən və gömrük ittifaqının üzvü olan dövlətlərin qanunvericiliyinin və hüquq normalarının tələbləri əsasında həyata keçirilir.

• ***Xarici iqtisadi fəaliyyət iştirakçıları ilə əməkdaşlıq prinsipi.*** Gömrük xidməti xarici ticarət subyektləri ilə əməkdaşlıq etməyə, gömrük nəzarətinin inkişafı və təkmilləşdirilməsi üçün anlaşma memorandumları bağlamağa çalışır.

• ***İnsan hüquqlarına hörmət prinsipi.*** Gömrük prosedurları və nəzarəti əsas insan hüquqlarını pozmamalıdır.

• ***Səmərəlilik və sadələşdirmə prinsipi.*** Gömrük prosedurları xarici ticarət iştirakçıları üçün effektiv və sadələşdirilmiş olmalıdır. Bu, ticarətin asanlaşmasına və bürokratik maneələrin azalmasına kömək edir.

• ***Risklərin idarə edilməsi sistemindən istifadə prinsipi.*** Nəzarət forması və qaydasını seçərkən ona etibar edirlər [1].

Gömrük nəzarətinin təşkili və tənzimlənməsi prinsiplərinin tətbiqi ticarət əməliyyatlarının asanlaşdırılması və təhlükəsizliyi arasında balans yaratmağa yönəlmişdir. Müasir gömrük idarəçiliyi bu prinsiplərə əsaslanaraq, texnoloji yenilikləri və risk idarəetməsini istifadə edərək gömrük nəzarətini daha şəffaf və səmərəli şəkildə həyata keçirir. Həmçinin bu prinsiplər insan hüquqlarına hörmət və etik qaydalara uyğunluq təmin edərək gömrük orqanlarının fəaliyyətinin hüquqi və sosial əsaslarını gücləndirir. Bu prinsiplər, həm də ölkələr arasındakı iqtisadi əlaqələri möhkəmləndirərək qlobal ticarətin səmərəliliyini artırmaq üçün nəzərdə tutulmuş bir sıra əsas qaydaları əhatə edir.

**Gömrük nəzarətinin və tənzimlənməsinin metod və prinsiplərinə dair düsturlar**

Gömrük nəzarətinin və tənzimlənməsinin metod və prinsiplərinə dair düsturlar bu sahədə tətbiq olunan əsas yanaşmaların təkmilləşdirilməsi və optimallaşdırılması məqsədini daşıyır. Aşağıda gömrük nəzarətinin effektivliyini təmin etmək üçün bəzi əsas düsturlar verilmişdir:

***1. Riskin idarə edilməsi (Risk management):***

$$R = \sum_{i=1}^{n} R_i \cdot C_i$$

Burada, $R$ – ümumi risk, $R_i$ – riskin meydana gəlmə ehtimalı, $C_i$ isə hər bir riskin potensial təsirini ifadə edir. Bu düstur gömrük nəzarətində risklərin qiymətləndirilməsi və idarə edilməsi üçün istifadə olunur, bu da risklərin səmərəli idarə olunmasında gömrük nəzarətinin effektivliyini artırır.

***2. Seçmə nəzarət (Selective control):***

$$N = \sum_{i=1}^{n} x_i \cdot y_i$$

Burada, $N$ – gömrük nəzarətinin tətbiq ediləcək nömrəsi, $x_i$ müəyyən edilən risk profilinə əsasən seçilmiş mal partiyalarının sayı, $y_i$ isə həmin mal

partiyalarının nəzarətə alınma ehtimalını göstərir. Bu düstur resursların effektiv istifadəsini təmin edir və nəzarət tədbirlərinin səmərəli şəkildə tətbiq olunmasına kömək edir.

***3. Beynəlxalq əməkdaşlıq (International cooperation):***

$$C = \sum_{i=1}^{n} D_i \cdot M_i$$

Burada, $C$ – beynəlxalq əməkdaşlığın gücü, $D_i$ – məlumat mübadiləsi, $M_i$ isə müxtəlif ölkələr arasında əlaqələndirilmiş gömrük əməliyyatlarının keyfiyyətini təmsil edir. Bu düstur müxtəlif ölkələr arasında məlumat və əməkdaşlıq sistemlərinin effektivliyini ölçmək üçün istifadə olunur.

***4. Texnoloji alətlərdən istifadə (Use of technology):***

$$E = \sum_{i=1}^{n} T_i \cdot S_i$$

Burada, $E$ – texnologiyanın gömrük nəzarətində istifadə effektivliyini, $T_i$ – müxtəlif texnoloji vasitələrin növünü, $S_i$ isə həmin vasitələrin tətbiq edildiyi sahələrin səmərəliliyini göstərir. Bu düstur texnologiyanın gömrük nəzarətində nə qədər effektiv və sürətli istifadə edildiyini ölçür.

5. ***Əlavə izahatın tələb edilməsi (Requesting further explanations):***

$$Z = \sum_{i=1}^{n} A_i \cdot B_i$$

Burada, $Z$ – gömrük nəzarətində tələb olunan izahatların ümumi sayı, $A_i$ – müfəttiş tərəfindən istənilən əlavə məlumatın sayı, $B_i$ isə məlumatın aydınlaşdırılmasına əsaslanan tələb olunan prosedurların sayını təmsil edir [4].

Bu düsturlar gömrük nəzarətinin təşkilində və tənzimlənməsində istifadə olunan əsas metod və prinsiplərin nəzəri əsaslarını ifadə edir. Hər bir metod və prinsip müasir gömrük idarəetmə sisteminin təkmilləşdirilməsinə və optimal nəticələrin əldə edilməsinə imkan verir.

**1. Risk idarəetməsi metodu.** Risk idarəetməsi gömrük nəzarətinin vacib bir hissəsidir və əsasən **iki** əsas komponentdən ibarətdir:

***Ehtimal və təsir.*** Bu metodun tətbiqi gömrük orqanlarının fəaliyyətini səmərəli şəkildə təşkil etməyə, riskləri müəyyən etməyə və onlara qarşı müvafiq tədbirlər görməyə imkan verir.

**Risk = ehtimal×təsir**

*Ehtimal:* Qaydanın pozulma ehtimalı.

*Təsir:* Pozulma baş verdikdə yaranan ziyanın dərəcəsi.

**2. Gömrük dəyərinin hesablanması.** Gömrük dəyəri bir malın gömrük orqanları tərəfindən müəyyənləşdirilən dəyəridir və bu dəyər əsasında gömrük rüsumları və digər ödənişlər hesablanır. Gömrük dəyərinin düzgün hesablanması beynəlxalq ticarətdə əhəmiyyətli rol oynayır.

***Gömrük dəyəri = müqavilə qiyməti+nəqliyyat xərcləri+sığorta+digər xərclər.***

Müqavilə qiyməti malın satışı üçün tərəflər arasında razılaşdırılan qiymətdir. Bu, əsasən malın alıcıya satıldığı qiymətdir. Nəqliyyat xərcləri malın təyinat yerinə çatdırılması üçün çəkilən bütün xərcləri əhatə edir. Sığorta malın daşınması zamanı yaranan risklərə qarşı qoruma təmin edir. Sığorta xərcləri malın daşınması zamanı baş verə biləcək itkilərin qarşısını almaq məqsədini güdür.

Digər xərclər malın idxal prosesinə dair olan əlavə xərcləri əhatə edir

**3. Gömrük rüsumlarının hesablanması.** Gömrük rüsumları bir malın idxal olunarkən gömrük orqanlarına ödənilməsi üçün tələb olunan məbləğdir. Rüsumlar malın gömrük dəyəri əsasında hesablanır və ticarət siyasətinin, iqtisadi strategiyanın və beynəlxalq razılaşmaların tələblərinə uyğun olaraq təyin olunur.

***Gömrük rüsumları = gömrük dəyəri×rüsum dərəcəsi***

Gömrük dəyəri gömrük rüsumlarının hesablanmasında istifadə olunan ilk komponent gömrük dəyəridir. Rüsum dərəcəsi isə gömrük dəyərinə tətbiq olunan faiz nisbətidir.

**4. Uyğunluq tələblərinin hesablanması.** Uyğunluq dərəcəsi gömrük nəzarətinin effektivliyini qiymətləndirmək üçün istifadə olunan bir göstəricidir. Bu göstərici gömrük müfəttişlərinin icra etdiyi yoxlamalarda düzgün və qanuni malların faizini göstərir.

***Uyğunluq dərəcəsi = (uyğunluq olan mallar/cəmi mallar)×100%***

Uyğunluq olan mallar gömrük qanunlarına və tənzimləmələrinə uyğun olaraq təsdiqlənmiş və müvafiq sənədlərlə təmin edilmiş mallardır. Cəmi mallar gömrük müfəttişlərinin yoxladığı bütün malların sayını ifadə edir. Bu, uyğunluq yoxlamaları zamanı qiymətləndirilən bütün malların toplusunu əhatə edir.

***Nümunə hesablama:*** uyğunluq olan mallar: 80, cəmi mallar: 100

*Uyğunluq dərəcəsi=(80/100)×100% = 80%*

**5. Fiziki yoxlama metodu.** Fiziki yoxlama dərəcəsi gömrük nəzarətində yoxlanılan malların faizini ölçmək üçün istifadə olunur. Bu göstərici gömrük müfəttişlərinin həyata keçirdiyi yoxlamaların effektivliyini və genişliyini qiymətləndirmək məqsədini güdür.

***Fiziki yoxlama=(yoxlanılan malların sayı/ümumi mallar)×100%***

Yoxlanılan mallar gömrük müfəttişləri tərəfindən fiziki yoxlamaya təqdim olunan və kontrol edilən malların sayını ifadə edir. Bu, gömrük əməliyyatları zamanı təhlükəsizlik, uyğunluq və digər kriteriyalara əsaslanaraq seçilən malları əhatə edir. Ümumi mallar müəyyən bir dövr ərzində gömrük orqanları tərəfindən qiymətləndirilən bütün malların sayını göstərir. Bu isə fiziki yoxlamalar zamanı nəzərə alınan bütün malların cəmini əhatə edir. Hesablamanın tətbiqi:

***Fiziki yoxlama dərəcəsi=(50/200)×100%= 25%***

Bu halda, 25% fiziki yoxlama dərəcəsi gömrük nəzarətinin müəyyən bir hissəsində fiziki yoxlamanın tətbiq olunduğunu göstərir.

**6. Sənəd yoxlama metodu.** Sənəd yoxlaması dərəcəsi, gömrük müfəttişlərinin yoxladığı sənədlərin düzgünlüyünü qiymətləndirmək üçün istifadə olunur. Bu göstərici gömrük proseslərinin nə dərəcədə uyğun və qanuni olduğunu anlamağa kömək edir.

***Sənəd yoxlaması=(düzgün sənədlər/cəmi sənədlər)×100%***

Düzgün sənədlər gömrük müfəttişləri tərəfindən yoxlanıldıqdan sonra qanuni və müvafiq tələblərə uyğun olan sənədləri ifadə edir. Cəmi sənədlər gömrük orqanları tərəfindən qiymətləndirilən bütün sənədlərin sayını göstərir. Bu, müəyyən bir dövr ərzində müfəttişlərin yoxladığı bütün sənədlərin cəmini əhatə edir. Məsələn, bir dövr ərzində 150 sənəd yoxlanılıb və bunlardan 120-si düzgün hesab olunub. Sənəd yoxlaması dərəcəsi aşağıdakı kimi hesablanır:

***Sənəd yoxlaması dərəcəsi = (120/150)×100% = 80%***

Bu metod və düsturlar gömrük nəzarətinin səmərəli və effektiv idarə olunmasını təmin etmək məqsədini güdür. Hər bir metod gömrük prosedurlarının təhlükəsizliyini, dəqiqliyini və sürətini artırmağa kömək edir.

**Nəticə.** Gömrük nəzarəti beynəlxalq ticarət əməliyyatlarının təhlükəsizliyini təmin etmək, qanunsuz fəaliyyəti aşkar etmək və dövlətin fiskal maraqlarını qorumaq baxımından vacib bir vasitədir. Bu proses müxtəlif metod və prinsiplərin məqsədyönlü tətbiqi ilə həyata keçirilir ki, bu da həm effektivliyi artırır, həm də ticarət əməliyyatlarını sadələşdirir. Gömrük nəzarətinin təşkilində əsas metodlar arasında sənədlərin və məlumatların yoxlanılması, malların və nəqliyyat vasitələrinin gömrük müayinəsi, texniki vasitələrdən istifadə, izahatların alınması və seçmə nəzarət mühüm yer tutur. Bu metodlar gömrük əməliyyatlarının risk idarəetmə prinsipləri əsasında həyata keçirilməsini təmin edir və effektivliyini yüksəldir. Həmçinin gömrük prosedurlarının tənzimlənməsi zamanı texnologiyaların tətbiqi və müasir texniki vasitələrin istifadəsi vaxt və resursların qənaətinə imkan yaradır. Rentgen qurğuları, xüsusi güzgülər, video cihazları və digər texniki alətlər əməliyyatların dəqiqliyini artırır və gömrük nəzarətinin daha sürətli həyata keçirilməsinə şərait yaradır. Bütün bu metod və prinsiplər yalnız gömrük idarəetməsinin effektivliyini artırmaqla kifayətlənmir, həm də beynəlxalq ticarət axınlarının təhlükəsizliyini təmin edir. Bu yanaşmaların düzgün tətbiqi dövlətin iqtisadi maraqlarını qorumaqla yanaşı, qlobal iqtisadi inteqrasiyaya da dəstək verir. Beləliklə, gömrük nəzarətinin təşkilində tarazlı və şəffaf bir yanaşma həm milli təhlükəsizliyi, həm də beynəlxalq əməkdaşlığı möhkəmləndirir.

Nəticə olaraq gömrük nəzarətinin təşkili və tənzimlənməsinin metod və prinsipləri müasir iqtisadiyyatın inkişaf etdirilməsi və qlobal ticarətin təhlükəsizliyinin təmin edilməsidir. Bu metodların və prinsiplərin hər biri gömrük sisteminin effektivliyini təmin etməkdə mühüm rol oynayır və onların sintezi əsasında daha təhlükəsiz, sürətli və etibarlı gömrük prosedurlarını təmin etmək mümkündür.

## İstifadə edilmiş ədəbiyyat

1. Heydərov K.F. Gömrük işinin əsasları, gömrük işinin idarə edilməsi və inkişafı (cild 4). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 2000.

2. Səlahiyyətli iqtisadi operator (metodik tövsiyə). 2023.
https://customs.gov.az/uploads/pdfcontent/istifade.pdf

3. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə. Gömrük işinin təşkili və idarə edilməsi. Bakı, “Qanun” nəşriyyatı, 2003, 332 s.

4. Yadigarov T. Gömrük statistikası və müasir informasiya texnologiyaları. Bakı, 2020.

https://www.anl.az/el/Kitab/2020/09/cd/Ar2020-136.pdf

5. Customs Procedures and Regulations. 2011.

https://www.wto.org/english/thewto_e/acc_e/syc_e/wtaccsyc47_leg_1.pdf

6. Rosenbaum D.H. Customs Risk Management: A Global Perspective. 2014.

7. Jones E. Customs and Risk Management: A Comprehensive Approach. 2019.

8. The Technological View of the World of Martin Heidegger.

https://www.futurelearn.com/info/courses/philosophy-of-technology/0/steps/26314

9. Бормотова Е.Г., Ворона А.А., Дианова В.Ю. Управление таможенной деятельностью. Актуальные вопросы взаимодействия Федеральной таможенной службы с государственными контролирующими органами (учебное пособие) СПб.: ИЦ «Интермедия», 2020.

**N.Zeynalli**

## Methods and principles of effective and targeted implementation of customs procedures

**Abstract**

The correct organization and execution of customs procedures in the modern trade environment is one of the main factors ensuring the sustainable development of national economies and the security of international trade operations. For the effective and targeted implementation of this process, it is important to apply special methods and principles. The main objective of customs control is to prevent violations of the law at border crossing points, support legitimate trade and ensure national security. Theoretical and practical application of these approaches makes international trade operations more secure and transparent, and increases the efficiency of customs control. The correct application of methods and principles in the activities of customs authorities is of great importance both from the point of view of the national economy and world trade. To achieve these goals, modern principles such as a risk-oriented approach, the use of technological solutions, international cooperation and transparency come to the fore. It also ensures that human rights are respected and legal frameworks are protected when regulating customs procedures, and that processes are organised in accordance with ethical values. The methods and principles applied in the activities of customs authorities are an effective tool in combating illegal activities and also speed up import-export operations. At the same time, these approaches support the sustainable development of national and global economies and contribute to ensuring the security and transparency of international trade relations.

**Н.Зейналлы**

## Методы и принципы эффективного и целевого осуществления таможенных процедур

**Аннотация**

Правильная организация и исполнение таможенных процедур в современной торговой среде является одним из основных факторов, обеспечивающих устойчивое развитие национальных экономик и безопасность международных торговых операций. Для эффективного и целенаправленного осуществления этого процесса важно применение специальных методов и принципов. Основной целью таможенного контроля является предотвращение нарушений законодательства в пунктах пересечения границы, поддержка законной торговли и обеспечение национальной безопасности. Теоретическое и практическое применение этих подходов делает международные торговые операции более безопасными и прозрачными, а также повышает эффективность таможенного контроля. Правильное применение методов и принципов в деятельности таможенных органов имеет большое значение как с точки зрения национальной экономики, так и мировой торговли. Для достижения этих целей на первый план выходят такие современные принципы, как риск-ориентированный подход, использование технологических решений, международное сотрудничество и прозрачность. Он также обеспечивает соблюдение прав человека и защиту правовых основ при регулировании таможенных процедур, а также организацию процессов в соответствии с этическими ценностями. Методы и принципы, применяемые в деятельности таможенных органов, выступают эффективным инструментом борьбы с незаконной деятельностью, а также ускоряют импортно-экспортные операции. В то же время эти подходы поддерживают устойчивое развитие национальной и глобальной экономики и способствуют обеспечению безопасности и прозрачности международных торговых отношений.